UOT 37.01.

***Mehriban Pəhlivan qızı Qurbanova,***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# TARİX TƏLİMİNDƏ BƏDİİ ƏDƏBİYYATDAN İSTİFADƏNİN MAHİYYƏTİ

***Мехрибан Пехливан гызы Курбанова,***
*Азербайджанский Государственный Педагогический Университет*

# ЗНАЧИМОСТЬ ИСПОЛЬЗОВАНИЯ ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЫ ПРИ ИЗУЧЕНИИ ИСТОРИИ

***Mehriban Pekhlivan Gurbanova,***
*Azerbaijan State Pedagogical University*

# THE USE OF FİCTİON İN THE STUDY OF HİSTORY AND İTS SİGNİFİCANCE

**Xülasə:** Məqalədə bədii ədəbiyyatın digər tarixi mənbələr kimi böyük əhəmiyyətə malik olmasından söhbət açılır. Bədii ədəbiyyat şagirdlərdə tarixi təsəvvürlərin yaradılmasında və keçmişin parlaq obrazlarının formalaşdırılmasında əvəzsiz rol oynayır. Bədii ədəbiyyatdan istifadə olunması şagirdlərdə öyrənilən dövrü aydın təsəvvür etməyə kömək etməklə yanaşı, həm də onların estetik və mənəvi tərbiyəsində olduqca səmərəlidir. Tarix müəllimi bədii ədəbiyyata müraciət edərək nəinki adətən dərslikdə olmayan əlavə məlumat əldə edir, eyni zamanda, öz pedaqoji ustalığının artmasına kömək edən və şagirdlərdə öyrənilən dövr haqqında dolğun təsəvvür yaradan ifadə vasitələrinə sahib olur.
***Açar sözlər:*** *klassik ədəbiyyat, bədii ədəbiyyat, mənəvi tərbiyə, tarixi abidə, tarixi qəhrəman*

**Резюме:** В статье говорится о значимости художественной литературы, как и других видов исторических источников. Художественная литература играет определенную роль в создании исторических идей у учеников и в формировании ярких образов прошлого. Использование художественной литературы помогает ученикам иметь чёткое представление об изучаемом периоде, а также является очень эффективным в их эстетическом и нравственном воспитании. Обращаясь к художественной литературе, учитель истории не только получает не имеющуюся в учебниках дополнительную информацию, но и овладеет средствами выражения, способствующими улучшению своих преподавательских навыков и создающих полное представление об изучаемом периоде.
***Ключевые слова:*** *классическая литература, художественная литература, нравственное воспитание, исторические памятники, исторический герой*

**Summary:** The article talks about the significance of fiction and other types of historical sources. Fiction plays a definite role in creating students' historical ideas and shaping vivid images of the past. The use of fiction helps students to have a clear understanding of the period under study, and is also very effective in their aesthetic and moral education. Turning to fiction, a history teacher not only obtains additional information that is not available in textbooks, but also owns means of expression that help to improve their teaching skills and create a complete picture of the period under study.
***Key words:*** *classical literature, fiction, moral education, historical monuments, historical hero*

Bədii ədəbiyyat şagirdlərin tarixi keçmişimizi öyrənməsində böyük əhəmiyyət daşıyır. Bədii ədəbiyyatdan tarix dərslərində həm dərs zamanı, həm də dərsdənkənar məşğələlər zamanı istifadə olunur.

"Bədii ədəbiyyatın tarix dərslərində istifadə olunması öyrədilən materialın əyaniliyini artırır, onun konkretləşdirilməsinə xidmət edir, şagirdlərdə keçmiş haqqında canlı təsəvvürlərin formalaşdırılmasına kömək edir" (1, s. 287). Bədii ədəbiyyatın tarix dərslərində əhəmiyyəti həm

də ondan ibarətdir ki, müəyyən bir dövrün sosial-ictimai təzahürlərini real təcəssüm etdirən ədəbi-bədii obrazlar var. Bədii ədəbiyyatdan istifadə tarixi mətnin təsdiqi kimi çıxış edir. "Məntiqi ardıcıllığın göstəricilərinə(faktların, anlayışların, sübutun) bədii obrazın gücü və inandırıcı olması da əlavə olunur" (1, s. 287). Bədii obraz müəllimin nəqlinə emosionallıq əlavə etməklə yanaşı şagirdlərdə yüksək mənəvi hisslər formalaşdırır.

Bədii-tarixi ədəbiyyatın inandırıcı və həqiqətə uyğun olmasından söhbət gedəndə A. Tolstoyun böyük xidmətini qeyd etmək lazımdır. Onu oxuyan və tarixdən heç bir məlumatı olmayan hər bir kəs o dövrün gərginliyini hiss edir. Bədii ədəbiyyat tarix dərsinin səmərəliliyini, emosionallığını və tərbiyəedici rolunu artırmaqla yanaşı, həm də təhsilalanların dərsə marağının artmasına da səbəb olur. Qeyd etmək lazımdır ki, tarix dərslərində klassik ədəbiyyatdan istifadə baxımından mütaliə problemi müasir dövrdə daha aktualdır. Klassik ədəbiyyatdan istifadə sinifdənxaric, dərsdənkənar, könüllü bir işdir; bu məsələnin ziddiyyətli cəhəti isə onun tarix dərslərinin mənimsənilməsində hədsiz dərəcədə vacib olduğu bir halda şagirdin seçimindən asılı olmasındadır (3, s. 67).

Qeyd etməliyəm ki, məhz tarixi hadisə və təzahürlərin baş verdiyi dövrdə yaşamış yazıçı və şairlərin qələmə aldıqları əsərlər mənbə hesab oluna bilər. Yuxarı sinif şagirdlərinin tanış olmalı olduqları ədəbi əsərlərin minimum siyahısı tərtib olunmalı, bədii əsərlərin müzakirəsinə həsr olunmuş xüsusi məşğələlər keçirilməlidir (3, s. 67). Müəllim tarixi ədəbiyyatın mütaliəsindən sonra şagirdlərə verilməli olan sualları hər bir kitaba görə konkretləşdirməli və kitabın şagird tərəfindən ümumi qiymətləndirilməsinə yönəltməlidir. Məsələn: "Müəllif hansı tarixi dövrü təsvir edir?", "Kitabda təsvir olunan dövr və cəmiyyətin inkişafı müəllif tərəfindən elmi cəhətdən düzgün qiymətləndirilmişdirmi?" və s.

Bir çox metodistlər belə hesab edirlər ki, mütaliədən sonra şagirdlərə veriləcək suallar, əsasən, şagirdlərin oxuduqları kitabı necə qiymətləndirdiklərinə yönəlmiş olmalıdır. Məsələn: "Bu kitabda ən çox xoşuna gələn nədir?" və ya "Bu kitabın oxunması səndə hansı hissləri yaratdı?"

Bədii ədəbiyyatdan istifadə edən tarix müəllimi tarixi materialı şagirdə mənimsədərkən daha çox əyaniliyə nail olmaqla yanaşı həm də özünün pedaqoji ustalığının artmasına səbəb olur. Bədii ədəbiyyata müraciət etməklə tarix müəllimi nəinki əlavə məlumat toplayır, həm də tədris etdiyi dövrün "ruhunu", onun qəhrəmanlarının simasını şagirdlərə çatdırmağa imkan tapır (4, s. 4).

Tarix təlimində istifadə olunan bədii ədəbiyyatı iki yerə bölmək olar: Öyrənilən dövrün ədəbi abidələri (ədəbi mənbələr) və tarixi belletristika.

Tarixi hadisələrin bilavasitə şahidi olmuş müəlliflər tarixi keçmişi dərk etməyə xidmət edən təsvir etdikləri dövrün özünəməxsus sənədlərini tərtib etmişlər. Tarix dərsində adətən müəllim tərəfindən seçilmiş bir fraqmentdən istifadə olunur. Bədii ədəbiyyatdan tarix dərslərində istifadəni daha səmərəli etmək üçün tarix müəlliminin üzərinə böyük məsuliyyət düşür. Tarix dərslərində şagirdlərin əldə etdikləri bilikləri dərinləşdirməkdən ötrü sinifdə və sinifdənxaric iş zamanı istifadə olunacaq bədii ədəbiyyat nümunələrini şagirdlərə məsləhət görərkən müəllim kitabın tarixi və bədii dəyərini, yaşa uyğunluğunu, tərbiyəedici əhəmiyyətini nəzərə almalıdır. Müəllim seçdiyi ədəbiyyat siyahısı ilə şagirdləri tanış edir, kitablar haqqında qısa məlumat verir, sonda siyahını tarix kabinetinin divarından asır. Məzmun baxımından şagirdlərin səviyyəsinə uyğun olmayan əsərlərdən müəllim bir fraqment götürərək tarix dərsində istifadə edə bilər. Uzun-uzadı söylənilən, yaxud oxunan bədii əsər fraqmenti şagirdlərin dərsin əsas ideyasından uzaqlaşmasına səbəb ola bilər. Buna görə də fraqmentləri lakonik olmaqla minimum həddədək qısaldaraq dərsdə istifadə etmək lazımdır (5, s. 144).

Ədəbi abidələrə (mənbələrə) şifahi xalq yaradıcılığı nümunələri olan nəğmələr, dastanlar, nağıllar da aid edilə bilər. Məsələn, Çar Rusiyasında hökm sürən bürokratiya və rüşvətxorluğu tarix müəllimi aşağıdakı atalar sözləri ilə əlaqələndirir: "Cib boş olanda məhkəmə də kar olur", "Yaxşılıq istəyirsənsə, onda çoxlu gümüş payla".

Bədii tarixi ədəbiyyatdan istifadənin bir neçə yolu vardır. Əsas yollardan biri dərs zamanı bədii kitabdan bir hissənin oxunulmasıdır.

Mütaliə intonasiya ilə, tələsmədən olmalıdır. Bu, həm də monoloqlara da aid edilir. Məsələn, F. Şillerin "Orlean qızı" əsərində Janna d Arkın kənd əhalisi ilə xudahafizləşməsi hissəsini göstərmək olar. Şagirdlər istənilən bədii-tarixi əsərə tarix elmi nöqteyi-nəzərindən yanaşmalıdırlar. Onlar ədəbi əsər üzərində işləyərkən aşağıdakı məqamları mütləq nəzərə almalıdırlar:

1) Dövr(zaman), hadisə və təzahürlərin əsərdə əks olunması;

2) Əsərin əsas(vacib) və parlaq hadisələri;

3) Tarixi və tipik obrazlar, onlarla bağlı baş verənlər;

4) Əsərdə təsvir olunan hadisələrə və qəhrəmanlara müəllifin münasibəti;

5) Şagirdin kitab haqqında rəyi;

6) Oxucu bu kitabdan nə öyrənə bilər?.

R. Şveyxelin "Azadlıq uğrunda" əsəri kimi kitablar əsasında şagirdlər evdə inşa yazıları yaza bilirlər.

Bədii ədəbiyyatla işi səmərəli təşkil etmək üçün müəllim şagirdlər üçün "yaddaş vərəqi" də yazdıra bilər.

Bədii ədəbiyyatın şagirdlərin mənəvi tərbiyəsində rolu böyükdür. Məsələn, şagirdlərin sevimli qəhrəmanlarından biri də Səttarxandır. "Sərdarın rəşadəti ilə İran müstəbidləri Azərbaycanla hesablaşmaq zorunda qaldı" (6, s. 23)

Tarix dərsində istifadə etmək üçün bədii ədəbiyyat seçərkən müəllim iki məqamı nəzərə almalıdır: materialın idraki, tərbiyəedici dəyərini, tarixi reallığı onun inkişaf qanunauyğunluqları baxımından əks etdirməsini və onun yüksək bədii dəyərə malik olmasını. Tarix dərsində istifadə etmək üçün bədii ədəbiyyatdan fraqment seçərkən müəllim aşağıdakıları nəzərə almalıdır:

1) Məktəb proqramlarında və dərsliklərində öyrənilməsi nəzərdə tutulan tarixi hadisələrin canlı təsviri;

2) Tarixi şəxsiyyətlərin, xalq kütlələrinin nümayəndələrinin və xalq kütlələrinin özlərinin təsviri;

3) Tarixi hadisənin baş verdiyi bu və ya digər şəraitin təsviri.

Bədii əsərlərdən müəllimin izahında qısa sitatlar şəklində də istifadə oluna bilər. Bu baxımdan şeir parçalarından daha səmərəli istifadə etmək olar. Bədii ədəbiyyatdan ənənəvi təlimdə istifadə edilərkən metodistlər V-IX siniflərdə daha geniş, X-XI siniflərin tarix dərslərində isə yalnız bədii əsərin və onun müəllifinin adını çəkməklə kifayətlənməyi, əsəri bütünlükdə oxumağı isə şagirdlərin öz öhdəsinə buraxmağı məsləhət görürdülər. Yəni, tarix dərslərində ədəbi əsərlərdən istifadə edərkən mütləq bir ölçü gözlənilməlidir. A.A. Vagin belə hesab edirdi ki, "bədii ədəbiyyatın tarix dərslərində geniş istifadəsi, şagirdlərin əlavə ədəbi obrazlar və sitatlar ilə həddindən artıq yüklənilməsi səhv addım olardı.

Müasir dövrdə respublikamızda təhsil sahəsində aparılan ardıcıl islahatlar digər fənlər kimi tarix fənninin də tədrisi qarşısında yeni tələblər qoyur. Müasir fəal (interaktiv) təlim üsullarının tətbiqi şəraitində tarix dərsinin bütün komponentləri kimi klassik ədəbiyyatdan istifadə üsulları da dəyişir, yeni məzmun və əhəmiyyət kəsb edir. Yeni təlim üsullarının şəxsiyyətyönlü mahiyyətini nəzərə alaraq demək lazımdır ki, ədəbi-tarixi qəhrəmanların obrazlarının təbliği şagird şəxsiyyətinin inkişafında əvəzsiz rol oynayır.

Sonda qeyd etmək istəyirəm ki, bədii ədəbiyyatın tarix dərslərində istifadə olunması öyrənilən tarixi dövrün mahiyyətini dərk etməyə və şagirdlərin dünyagörüşünün inkişafına şərait yaradır.

Nəticə olaraq qeyd etmək olar ki, tarix təlimində bədii ədəbiyyatdan didaktikanın tələbləri əsasında istifadə edilməsi şagirdlərdə tarixi biliklərin şüurlu mənimsənilməsinə motiv yaradır, bədii təsəvvürləri və anlayışları formalaşdırır.

**Məqalənin elmi yeniliyi**. Müasir təhsil sistemində tarix dərslərinin səmərəli təşkilində rol oynayan, öyrənilən materialın səmərəliliyini artıran, onun konkretləşdirilməsinə kömək edən, tarixi təsəvvürlərin yaradılması yollarından biri olan bədii ədəbiyyat tarix təlimində əvəzsiz olmaqla yanaşı müasir təlim üsullarının tətbiqi şəraitində də öz əhəmiyyətini qoruyub saxlayır və yeni səciyyə kəsb edir.

**Məqalənin praktiki əhəmiyyəti**. Bu tədqiqat işində tarix dərslərində bədii ədəbiyyatdan istifadənin mahiyyəti; bədii ədəbiyyatın təsnifatı, əhəmiyyəti, ənənəvi və yeni təlim üsullarının tətbiqi şəraitində istifadə metodikası araşdırılmışdır. Tədqiqatın praktiki əhəmiyyəti, ənənəvi təlimdə olduğu kimi yeni təlim üsullarının tətbiqi zamanı da bədii ədəbiyyatdan istifadənin səmərəliliyini göstərməsindədir. Tədqiqat tarix müəllimləri üçün əhəmiyyətlidir.

**Ədəbiyyat:**

1. Вагин А.А. Методика преподавания истории в средней школе. М.: Просвещение, 1968.
2. Дайри Н. Г. Обучение истории в старших классах средней школы. М.: Просвещение, 1966.
3. Вагин А.А. Художественная литература в преподавании новой истории. М.: Просвещение, 1978.
4. Студеникин М.Т. Методика преподавания истории в школе. М.: ВЛАДОС, 2002.
5. Həsənli C.P. Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945). Bakı: Diplomat, 1998.

**E-mail:** mt.qurbanova_202@mail.ru

**Rəyçilər**: *ped. ü. elm. dok., prof.* M.M. Əmirov,
*tarix ü. fəls.dok., dos.*S.X. Məmmədova
**Redaksiyaya daxil olub:** 27.11.2018.